2015-ci il noyabrın 1-də keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə vətəndaşların seçki hüququnu pozan hərəkətlərdən (hərəkətsizliklərdən) və qərarlardan şikayətlərin araşdırılması məqsədi ilə Mərkəzi Seçki Komissiyasının nəzdində yaradılmış ekspert qrupunun üzvü Ramiz İbrahimovun Mərkəzi Seçki Komissiyasına daxil olmuş 2 noyabr 2015-ci il tarixli, 114 saylı müraciət üzrə

**RƏYİ**

Bakı şəhəri 2 noyabr 2015-ci il

Mən, ekspert qrupunun üzvü Ramiz İbrahimov 2015-ci il noyabrın 1-də keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə 11 saylı Qaradağ seçki dairəsi üzrə namizədliyi "AZADLIQ-2015" siyasi partiyalar bloku tərəfindən irəli sürülmüş və qeydə alınmış Əbil Bəybala Əlibala oğlunun 28 oktyabr 2015-ci ildə Qobustan qəsəbəsində polis nəfərləri tərəfindən seçkiqabağı təşviqatın aparılmasına maneçilik törədilməsi barədə 2015-ci il noyabrın 2-də Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına daxil olmuş müraciətini araşdıraraq aşağıdakıları müəyyən etdim:

Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112 və 112-1-ci maddələrinin və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında" Təlimatın tələblərinə uyğun olaraq müraciət ekspert qrupunun üzvü tərəfindən ilkin olaraq nəzərdən keçirilərkən müəyyən edilmişdir ki, müraciət aidiyyət qaydalarının pozulması ilə daxil olmuşdur.

Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112-1.12-ci maddəsinə və yuxarıda göstərilən Təlimatın 8.6-cı bəndinə uyğun olaraq şikayət və ya müraciət aidiyyət qaydalarının pozulması ilə daxil olmuşdursa, ekspert qrupunun üzvü həmin müraciətin aidiyyəti üzrə göndərilməsinə dair rəy verməlidir.

Göstərilənlərə əsasən müraciət aidiyyəti üzrə araşdırılması üçün 11 saylı Qaradağ seçki dairəsinin dairə seçki komissiyasına göndərilməlidir.

Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında" Təlimatın 8.6-cı bəndinə əsasən **rəyə gəldim:**

1. Qeydə alınmış namizəd Əbil Bəybala Əlibala oğlunun Mərkəzi Seçki Komissiyasına daxil olmuş 2 noyabr 2015-ci il tarixli 114 saylı müraciəti aidiyyət qaydalarının pozulması ilə daxil olduğundan araşdırılması üçün aidiyyəti üzrə 11 saylı Qaradağ seçki dairəsinin dairə seçki komissiyasına göndərilsin.
2. Rəy qəbul edildiyi andan 18 saatdan gec olmayaraq dərc olunsun (internet saytına yerləşdirilsin) və surəti müraciət etmiş şəxsə göndərilsin.

Ekspert qrupunun üzvü Ramiz İbrahimov